

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 149 (23.561)

*8 sentyabr 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.

Dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, 1974-cü ildən fəaliyyətdə olan məktəbdə, ümumilikdə, 1700-ə yaxın şagird təhsil alır. Dördmərtəbəli yeni korpus 840 şagird yerlikdir. Burada kimya, fizika, biologiya laboratoriyaları, 35 sinif otağı, hərbi kabinet, kitabxana, oxu zalı və yardımçı otaqlar var. Bütün otaqlar elektron vasitə və proyektorlarla təchiz olunub. Məktəbin şagirdləri Rumıniyada, Türkiyədə keçirilən müsabiqələrin qalibləri olublar. Təhsil ocağı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev məktəbin direktoru Aygün Əzizovaya deyib:

– Şagirdlərə və valideynlərə mənim salamımı çatdırın.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 251 nömrəli məktəblə tanışlığı zamanı yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlətimizin başçısını salamlayıblar.

* * *

Həmin gün Prezident İlham Əliyev İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edib.



# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsi keçirilmişdir.

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngay təlimi izləmişlər.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev təlimə hazırlıq barədə raport vermişdir.

Əməliyyat taktiki təlimin planı ilə tanışlıq zamanı bildirilmişdir ki, təlimin keçirilməsində məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birləşmə, hissə və bölmələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsindən, eləcə də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası və Naxçıvan Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələri ilə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili və idarəetmənin təmin edilməsindən ibarətdir.

Planla tanışlıqdan sonra təlimə start verilmişdir.



Təlimin ssenarisinə əsasən döyüş atışlı mərhələ düşmənin mülki əhali arasında çaxnaşma yaradan və dövlət sərhədində təxribat törədən kəşfiyyat-diversiya qruplarının "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taboru və Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları tərəfindən zərərsizləşdirilməsi ilə başlamışdır. Düşmən təxribatlarına cavab olaraq Əlahiddə Ümumqoşun Ordunun raket və artilleriya birləşmə və hissələri tərəfindən düşmənə atəş zərbələri endirilmişdir. Naxçıvan Qarnizonu Qoşunları Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birgə hücuma keçərək düşmənin dayaq məntəqələrində canlı qüvvəsini, atəş vasitələri və zirehli texnikalarını məhv etmiş, hakim



yüksəkliklərdə və əlverişli hədlərdəki mövqelərini ələ keçirmişdir. Hücumun gedişində düşmənin aviasiyası məhv edilmiş, kiçikölçülü pilotsuz uçuş aparatları zərərsizləşdirilərək dərinlikdən hərəkət edən ehtiyatlarına aviazərbələr endirilmişdir.

Təlimin gedişində mühəndis, təminat və təxliyə qrupları qətiyyətli fəaliyyət göstərərək hücum edən qoşunlarımızın maneəsiz hərəkətini təmin etmişlər. Əlahiddə Əməliyyat Briqadası tərəfindən düşmənin kəşfiyyat-diversiya qrupları məhv edilmişdir. Mülki Müdafiə Alayının pirotexniki taqımı ələ keçirilmiş mövqeləri və hərəkət marşrutlarını minalardan, partlayan və partlamayan maneələrdən təmizləmişdir. Təyin edilmiş rayonlara taktiki və hava desantı endirilmişdir. Təlimdə Azərbaycan və Türkiyə birləşmə və hissələri arasında əməliyyatların birgə planlaşdırılması, bölmələrin vahid mərkəzdən idarə olunması, qarşılıqlı əlaqənin və qoşunların hərtərəfli təminatının təşkili üzrə qarşıya qoyulmuş məqsədlərə nail olunmuşdur. Şəxsi heyətin birgə fəaliyyəti zamanı xəbərdaretmə, idarəetmə, qarşılıqlı əlaqə, qarşılıqlı tanınma və hədəf göstərmə üzrə tapşırıqların eyni qaydada icrasına nail olunmuş, komandirlər arasında təcrübə mübadiləsi aparılmışdır.

Sonda döyüş təyyarələri və helikopterlərin keçidi ilə Azərbaycan və Türkiyə Respublikalarının dövlət bayraqlarının, eləcə də kanatla



desantın daşınması nümayiş etdirilmişdir.

Təlimdən sonra silahlanmaya yeni qəbul edilən hərbi radiokəşfiyyat vasitələrinə baxış olmuşdur.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini, əsgər və zabitləri salamlamış, onları Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik etmiş, hərbi təlimin hazırlanmasında əməyi olanlara təşəkkürünü bildirmişdir.

Ali Məclisin Sədri demişdir: Güclü ordu dövlətçiliyin və müstəqilliyin rəmzidir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən milli ordumuz olmalıdır".*** Ölkəmizə hər iki rəhbərliyi dövründə dahi şəxsiyyət bu məsələni diqqətdə saxlamış, müstəqilliyimizin təminatçısı olan qüdrətli Azərbaycan Ordusunu yaratmışdır. Ulu öndərin ordumuzun döyüş və peşəkarlıq səviyyəsinin artırılması sahəsində müəyyənləşdirdiyi vəzifələr bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının gücləndirilməsi və şəxsi heyətin döyüş hazırlığının artırılması sahəsində ardıcıl tədbirlər görülür. Güclü iqtisadiyyat və dövlət-xalq-ordu birliyi Azərbaycan Ordusunun qüdrətini, döyüş qabiliyyətini ilbəil artırır, ölkəmizdəki sabitlik və təhlükəsizlik möhkəmləndirilir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu məsələləri ümumi inkişafın əsas istiqamətidir. Fəal strateji mövqedə və blokada şəraitində yerləşən muxtar respublikada müdafiə təhlükəsizliyi tam təmin olunmuşdur. Böyük təşkilatlanma, quruculuq və inkişaf yolu keçən Naxçıvan Hərbi Qarnizonu yüksək döyüş qabiliyyətinə, peşəkar və vətənpərvər şəxsi heyətə malikdir. Bu gün Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlığa əsaslanır

*Ardı 2-ci səhifədə*



və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Keçirilən birgə hərbi təlimlər də göstərdi ki, bizim gücümüz birliyimizdədir. Müdrik fikirlərdə deyildiyi kimi, ordunun gücü döyüş ləvazimatlarının çoxluğu ilə deyil, əsgərlərin peşəkarlığı, birliyi, cəsarət və ləyaqəti ilədir. Həqiqətən də, şəxsi heyətin birliyi, döyüş qabiliyyətinin artırılması və mənəvi-psixoloji hazırlığı hərbi xidmətin əsasını təşkil edir. Silah və texnika təminatı hələ güclü ordu yaratmaq demək deyil. O ordu güclüdür ki, onun şəxsi heyətində vətənpərvərlik ruhu və peşəkarlıq vardır. Hərbi təlimdə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi də ***bir millətin, iki dövlətin*** ordularının yüksək döyüş qabiliyyətinə və birliyə malik olduğunu təsdiq etdi.

"Böyük öndər Mustafa Kamal Atatürkün ***"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"*** və ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir"***, – fikirlərinə əsaslanan ikitərəfli münasibətlərimiz bu gün ölkə Prezidentləri tərəfindən uğurla davam etdirilir, strateji tərəfdaşlığımız daha da möhkəmlənir.





Birgə hərbi təlimin keçirilməsi də Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının nümunəsidir", – deyən Ali Məclisin Sədri çıxışını "Azərbaycan-Türkiyə dostluq və qardaşlığına eşq olsun!" ifadəsi ilə tamamlamışdır.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngay demişdir: Birgə təlim Türkiyə-Azərbaycan qardaşlığının daha bir ifadəsinə çevrildi. Ordular arasında ikitərəfli əlaqələrin genişləndirilməsi nəticəsində təlim planauyğun şəkildə icra olundu. Müasir silah və texnikalara sahib olmaq döyüşün qazanılması demək deyil. Vacib olan bu silah və texnikalardan peşəkarlıqla istifadə edə bilən şəxsi heyətin olmasıdır. Döyüş cəsur və igid əsgərlərlə qazanılır. Bu gün keçirilən təlim bunun bariz nümunəsidir. Təlim zamanı hədəflərin sərrast vurulması dosta güvən, düşmənə isə gözdağıdır.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı birgə təlimin keçirilməsinə göstərilən diqqətə görə minnətdarlıq etmişdir.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-polkovnik Kərəm Mustafayev demişdir ki, təlimin hazırlanması və keçirilməsinə, ümumilikdə, 5 min nəfərə qədər, döyüş atışlı mərhələnin keçirilməsinə isə 2 min 600-dən artıq şəxsi heyət cəlb edilmişdir.





Bundan başqa, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlifçaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemlər və minaatan, 18 təyyarə, helikopter və pilotsuz uçuş aparatı, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 320-yə yaxın avtomobil texnikası cəlb edilmişdir. Təlimə hazırlıq dövründə birgə qərargahlar tərəfindən keçirilən məşqlərdə müxtəlif səviyyədə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili diqqət mərkəzində saxlanılmışdır. Düşmən fəaliyyətlərinin təqlid edilməsi məqsədilə təlim sahəsində 28 hədəf rayonunda 800-ə yaxın hədəf və 90-dan çox maketdən istifadə edilmişdir. Yaradılmış hədəf rayonunun 100 faizi, hədəflərdən 85 faizdən, maketlərdən isə 90 faizdən çoxu məhv edilmişdir. İdarəetmənin və atəşin düzgün planlaşdırılması nəticəsində 32 raketə, 220 iriçaplı mərmiyə, 4 aviasiya bombasına və 7800-dən çox atıcı silahların döyüş sursatına qənaət edilmişdir.

Tədbirdə Azərbaycan Respublikası təltiflərinin təqdimatı olmuşdur.

Məlumat verilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 iyun tarixli Sərəncamı ilə Əlahiddə Ümumqoşun Ordunun zabitlərindən 1-i 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2-si "Vətən uğrunda" medalı, 2-si isə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri Azərbaycan Respublikası orden və medallarının döş nişanını və vəsiqələrini təqdim etmişdir.

Təlimdə fərqlənən zabit, gizir və əsgərlər qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

Sonra xatirə şəkli çəkdirilmişdir.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarını səsləndirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

*Dövlət proqramı icra olunur*

## Arxiv işinin inkişafı diqqət mərkəzindədir

***Xalqın tarixi yaddaşının yaşadılmasının ən mühüm vasitəsi, şübhəsiz ki, arxiv sənədləridir. Həmçinin dövlət hakimiyyət orqanlarının, idarə və müəssisələrin informasiya təminatının ödənilməsində, elmi-tədqiqatlarda, müxtəlif monoqrafiya və dərsliklərin yazılmasında arxiv sənədlərindən geniş istifadə olunur. Ona görə də bu yazılı mənbələrin müvafiq qanunvericiliyə uyğun qorunub saxlanılması xüsusi önəm kəsb edən məsələdir.***



Muxtar respublikamızda arxiv işinin sistemli şəkildə aparılması ilə bağlı bir çox tədbirlər həyata keçirilmişdir. Bu sahədə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, maddi-texniki bazanın gücləndirilməsi və kadr hazırlığının artırılması isə həyata keçirilən tədbirlərin davamlılığını təmin edəcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 mart tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi bu sahəyə göstərilən xüsusi diqqətin mühüm təcəssümüdür. Proqramın məqsədi arxiv işi sahəsində həyata keçirilən islahatların davamlılığı, dövlət arxiv təşkilatlarının fəaliyyətinin təkmilləşdirilməsi, cəmiyyətdə arxiv işinin rolunun artırılması, arxiv fonduna aid sənədlərin toplanılması, sistemləşdirilməsi, dövlət mühafizəsinə daimi qəbulu, qeydiyyatı və onlardan səmərəli istifadəni təmin etməkdən ibarətdir.

Dövlət proqramında arxiv işi sahəsində dövlət nəzarətinin gücləndirilməsi, kadr potensialının təkmilləşdirilməsi, dövlət arxivlərinin informasiya potensialının zənginləşdirilməsi, göstərilən xidmətlərin çeşidinin artırılması, arxiv fondu sənədlərinin rəqəmsallaşdırma yolu ilə etibarlı mühafizəsinin təşkili kimi bir çox istiqamətlər müəyyən edilmişdir.

Ötən dövrdə Dövlət proqramının icrası ilə bağlı işlərə başlanılmış, arxiv fondu sənədlərinin rəqəmsallaşdırılması üçün qurulması nəzərdə tutulan elektron şəbəkənin sxem-planı hazırlanmışdır. Eyni zamanda arxiv fondlarının elektron kataloqunun hazırlanması işi Dövlət Arxiv İdarəsində başa çatdırılmış, rayon dövlət arxivlərində davam etdirilmişdir. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də digər idarə, müəssisə və təşkilatlar tərəfindən müvəqqəti mühafizə müddəti bitdikdən sonra arxiv fondu sənədlərinin komplektləşdirilərək Dövlət Arxiv İdarəsinə təhvil verilməsi diqqətdə saxlanılmış, 8 min 369 saxlama vahidi arxivə qəbul olunmuşdur.

Proqramda nəzərdə tutulan tədbirlərin icra müddətlərinə uyğun həyata keçirilməsi muxtar respublikada arxiv işinin müasir tələblərə uyğun təşkilini və bu sahədəki fəaliyyətə dövlət nəzarətinin gücləndirilməsini təmin edəcəkdir.

**"Şərq qapısı"**

# "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" kitabının təqdimatı olub

*AMEA Naxçıvan Bölməsində bölmənin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" kitabının təqdimat mərasimi keçirilib.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid tədbirdə çıxış edərək bildirib ki, monoqrafiya muxtariyyətimizin 1995-2019-cu illəri əhatə edən tarixi inkişaf mərhələsini və mühüm iqtisadi nəticələri özündə əks etdirən ilk sanballı tədqiqat əsəri, qədim diyarımızın tarixinin, ictimai və mədəni həyatının tədqiqatçıları, iqtisadçılar, ali təhsil müəssisələrinin pedaqoji heyəti üçün zəruri vəsait olmaqla, Naxçıvanşünaslıq elminə ən qiymətli töhfədir. Monoqrafiyanın "Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı" adlanan ilk fəslində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik Dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvanın sosial-iqtisadi inkişafı baxımından ölkəmizdə liderliyini qoruması faktı təhlil edilir. Kitabda qeyd olunur ki, İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı kimi mühüm tarixi missiyaları yerinə yetirən Naxçıvanda iqtisadi və sosial sahələrin inkişafını təmin edən tədbirlər davam etdirilir, dinamik inkişaf qorunub saxlanılır.

Bildirilib ki, yeni nəşrdə bir sıra istehsal sahələrində məhsul istehsalı həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi, muxtar respublikanın iqtisadi dayaqlarını möhkəmləndirməsi faktına da toxunulub. Naxçıvanda iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mövcud layihələrin icrasından, həyata keçirilən stimullaşdırıcı tədbirlərdən də bəhs olunub.

Kitabın "Naxçıvan Muxtar Respublikasının sosial inkişafı" adlanan ikinci fəslinin sosial inkişafın ümumi səciyyəsini və sosial sahədə baş verən dəyişiklikləri əhatə etdiyini vurğulayan Surə Seyid bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb. Bu fəsildə demoqrafik proseslər və məşğulluq problemlərinin həlli, səhiyyə sisteminin inkişafı və əhalinin sağlamlığının qorunması məsələsi də araşdırılıb, statistik göstəricilər və dinamik inkişaf konkret faktlarla təhlil edilib.

Diqqətə çatdırılıb ki, "Naxçıvan Muxtar Respublikasının mədəniyyəti" adlı üçüncü fəsil Naxçıvanda təhsil, elm, mədəni-maarif məsələlərini, ədəbiyyat, mətbuat, incəsənət və turizm sahələrini əhatə edir. Həmin fəsildə diyarımızda elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması və modernləşdirilməsi, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması və elmi nəticələrin xaricdə tanıdılması sahəsində atılan bir sıra mühüm addımlardan bəhs olunur. Nəşrdə qeyd edilir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Elmin İnkişafı Fondunun yaradılması ilə əlaqədar və imzalanan digər sərəncamlar zəngin tariximizin elmi axtarışlar və tədqiqatlar nəticəsində müstəqil düşüncə işığında öyrənilməsi, innovativ layihələrin dəstəklənməsi və tədqiqat nəticələrinin elmi nəşrlər vasitəsilə geniş ictimaiyyətə çatdırılmasına şərait yaradır. Monoqrafiyada elmi-mədəni tərəqqinin əsas göstəricisi sayılan təhsilin inkişafı elmi təhlil süzgəcindən keçirilib, təhsilin inkişafına yönəlmiş layihələrin və Dövlət proqramlarının uğurlu icrasından bəhs edilib. Həmçinin tarixi irsin qorunması istiqamətində aparılan kompleks tədbirlər, muzey quruculuğu, mədəni inkişafla bağlı islahatlar, keçirilən mədəni-kütləvi tədbirlər və Naxçıvanın çoxəsrlik mədəni inkişafı ilə əlaqədar dünya miqyasında aparılan təbliğat işləri yeni elmi nəşrdə tədqiqata cəlb edilən sahələrdir.



Bildirilib ki, turizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər monoqrafiyanın "Turizm" bölməsində geniş şərh olunub və statistik məlumatlarla əsaslandırılaraq göstərilib ki, muxtar respublikada aparılan quruculuq-abadlıq tədbirləri, muzeylər, çoxəsrlik tarixi abidələr, inkişaf etmiş infrastruktur, modern otellər şəbəkəsi, istirahət mərkəzləri, kənd və dağ turizmi üçün münbit ərazilərin və şəraitin formalaşması Naxçıvanı həm də turizm üçün cəlbedici bir məkana çevirib. Belə ki, təkcə ötən il Naxçıvana yarım milyona yaxın turist səyahət edib. Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı sayılan "Vanderlast" Naxçıvan şəhərini dünyanın səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərləri sırasına daxil edib. Yeni nəşrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club" Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq liderliyə yüksəlməsi faktı da öz əksini tapıb.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, iqtisad elmləri doktoru, professor Nazim Əhmədov monoqrafiyada yer alan mövzular barədə ətraflı məlumat veriblər.

Çıxış edənlər bildiriblər ki, monoqrafiyada Naxçıvan Muxtar Respublikasının 1995-2019-cu illərdə sosial-iqtisadi və mədəni tərəqqisinin ən mühüm cəhətləri tədqiq edilib, diyarımızın dinamik və davamlı inkişafı, baş verən dəyişikliklər, qazanılan nailiyyətlər faktiki materiallar, rəqəmlər əsasında təhlil olunub. Nəşri vərəqlədikcə gözlər önündə şəhər və kəndlərimizin abadlaşdırılması, inzibati binaların, sosial obyektlərin tikilməsi, tarix və mədəniyyət abidələrinin bərpası, yolların çəkilməsi, səliqə-sahmanın ən yüksək səviyyədə olması, insanların rifah halının yaxşılaşdırılması istiqamətində mərhələli şəkildə həyata keçirilən misilsiz işlər, o cümlədən muxtar respublikanın bugünkü ümumi mənzərəsi canlanır. Doğma diyarımızın 25 ilə yaxın bir dövrdə formalaşan inkişaf modelinin 19 istiqamətini özündə ehtiva edən kitab təhsil, mədəniyyət, sosial, iqtisadiyyat və digər sahələrdə çalışan mütəxəssislər, müəllim və tələbələr, tədqiqat işi ilə məşğul olan elm adamları üçün fundamental elmi baza rolunu oynayır. Beləliklə, muxtar respublikanın müstəqillik yollarında əldə etdiyi uğurlara, keçdiyi tarixi inkişaf yoluna bələd olmaq, tariximizin bu dövrünü öyrənmək istəyən hər kəs bu kitabın imkanlarından faydalana bilər.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında muxtar respublikamızın son 25 il ərzində keçdiyi inkişaf yoluna nəzər salıb, həyata keçirilən innovativ layihələr və qazanılan nailiyyətlərdən geniş bəhs edib, monoqrafiyanın ərsəyə gəlməsinə göstərdiyi böyük diqqət və qayğıya görə Ali Məclisin Sədrinə dərin minnətdarlığını bildirib.

Təqdimat mərasimində mövzu ilə bağlı slayd da nümayiş olunub.

Qeyd edək ki, Ali Məclis Sədrinin tapşırığına əsasən hazırlanan, muxtar respublikanın 95 illiyinə həsr olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı" kitabı "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap olunub. Giriş hissə və üç fəsildən ibarət olan monoqrafiyanın elmi redaktoru AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli, rəyçiləri iqtisad elmləri doktoru, professor Nazim Əhmədov, tarix üzrə elmlər doktoru Fəxrəddin Cəfərov və tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovdur.

**Nail ƏSGƏROV**

*Gəncliyimiz, gələcəyimiz*

# Heydər Əliyev adına tam orta məktəbin builki uğurları çox sevindiricidir

Bu günlərdə yeni dərs ilinə yaxınlaşdıqca keçirilmiş qəbul imtahanlarında yüksək nəticələr göstərmiş abituriyentlər haqqındakı xəbərlər də gündəmi çox məşğul edir. Muxtar respublikamızın məktəblərindən ard-arda gələn xoş xəbərləri eşitdikcə tələbələrin, eləcə də onların müəllim və valideynlərinin sevincinə şərik oluruq. Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin builki məzunları ilə görüşümüz də belə sevincli anlarla yadda qaldı.

Heydər Əliyev adına məktəb muxtar respublikamızın aparıcı təhsil ocaqlarından biri kimi təkcə Naxçıvanda deyil, ölkə miqyasında da tanınmaqdadır. Bu məktəbdə təhsil almaq hər bir şagirdin arzusu olduğu kimi, buradan yüksək nəticələrlə məzun olmaq da qürurvericidir. Məktəbdən aldığımız məlumata əsasən bu il məzun olmuş 60 nəfər I-V qruplar üzrə ali və orta ixtisas məktəblərinə sənəd verib, onların hamısı keçid balını üstələməklə 11 nəfəri 500, 4 nəfəri isə 600 baldan yuxarı nəticə ilə hamını sevindirib.



Məktəbin builki məzunlarından ***İlham Hüseynquliyev*** I qrup üzrə imtahan nəticələrinə görə təkcə bu təhsil ocağının deyil, eləcə də muxtar respublikamızın yetirmələri arasında birinci nəticə göstərib. O topladığı 692 balla bütün məktəb kollektivinin gözlədiyi ümidləri doğruldub. Müəllimlərindən və sinif yoldaşlarından təbrikləri qəbul edən İlhamla söhbətimizdə o bitirdiyi məktəbin tarixində də ən yüksək nəticə toplamaqla qürur duyduğunu bildirdi. Ziyalı ailəsində böyümüş gənc fizika-riyaziyyata həmişə böyük maraq göstərib, bu fənn üzrə olimpiadalarda yüksək nəticə əldə edib. Onun fikrincə bu fənlərə maraqgöstərən hər bir insanın müşahidə və təhlil keyfiyyətləri üstün olur, əzbərçiliyə də ehtiyacı qalmır. Gələcəkdə avtomatika mühəndisi olmağı arzulayan abituriyent bunun üçün artıq seçimini etdiyini də bildirdi. İngilis dilini daha yaxşı öyrənməyə, şahmata maraqgöstərən gənc özündən kiçik məktəb yoldaşlarına oxuduqları Heydər Əliyev adına məktəbin adını hər yerdə uca tutmağı, məsuliyyətli olub daha çox çalışmağı, asudə vaxtı da səmərəli keçirməyi tövsiyə etdi.



***Allahverdi Sayılov*** 662 balla IV ixtisas qrupu üzrə yüksək nəticə göstərib. Həkim olmaq arzusu ilə çalışdığını bildirən Allahverdi bu məktəbdə təhsil aldığına görə özünü çox xoşbəxt saydığını bildirdi. Sadə bir ailənin övladı olduğunu deyən gənc abituriyent məqsədə çatmaq üçün müəllimlərinin həmişə onlarla sıx ünsiyyətdə olduğunu, xüsusən son dövrlərdə onlayn dərslər zamanı mövzuların proqram üzrə mükəmməl mənimsənilməsində müəllim tələbkarlığının nə qədər əhəmiyyətli olduğunu bildirdi. Ən çox kimya fənnini sevdiyini, imtahan suallarında da bu fənn üzrə yüz faizlik nəticə göstərdiyini qeyd etdi. Bütün uğurlarına görə valideynlərinə və oxuduğu Heydər Əliyev adına məktəbin müəllimlərinə borclu olduğunu deyən Allahverdi tələbəlik illərində də daha xoş sədalarının gəlməsinə çalışacağını dedi.



***Nərmin Zeynalova*** ziyalı ailəsində böyüyüb. O, IV ixtisas qrupu üzrə imtahanlardan 647 bal toplamaqla qarşısına qoyduğu məqsədə çatdığını deyir. Birinci sinifdən oxuduğu Heydər Əliyev adına məktəbin həyatında dərin iz buraxdığını qeyd edərək ona dərs demiş müəllimlərə minnətdarlıq etdi. Həkim olmaq arzusunda da müəllimlərinin böyük rolu olduğunu deyən Nərmin artıq seçimini etdiyini bildirdi. Xarici dilləri öyrənməyə və musiqiyə də marağı olan gənc abituriyent gələcəkdə intellektli mütəxəssis olmaqla, ölkəsinə, Vətəninə daha çox fayda verməyi qarşısına məqsəd qoyduğunu dedi.



Heydər Əliyev adına məktəbin II ixtisas qrupu üzrə imtahanlarda ən yüksək nəticə göstərmiş məzunu ***Elvin Quliyev*** 619 bal toplayıb. O coğrafiya fənnindən yüz faiz nəticə göstərib. Gələcəkdə iqtisadçı olmağı, biznesin idarə edilməsi ixtisası üzrə mütəxəssis kimi çalışmağı arzuladığını bildirdi. Yaxşı karyera qurmaq üçün o, qarşısına yüksək hədəflər də qoyub. Heydər Əliyev adına məktəbdə qazandığı uğurları ali məktəbdə də davam etdirəcəyini deyən Elvin iqtisadiyyat təhsilindən əlavə olaraq xarici dillərə də maraqlı olduğunu qeyd etdi. Onun fikrincə, hər bir insan əgər qarşısına konkret hədəflər qoyubsa, o, mütləq bunlara çatacaq. Əgər bu hədəflər təhsildədirsə, bunun üçün indi hər bir imkan və şərait yaradılıb.

Bəli, artıq müstəqil həyatın ilk astanasında olan bu xoşbəxt gənclərlə qısa söhbətimizdə onların nə qədər intellektli, nə qədər gələcəyə həvəsli olduqlarını qəti şəkildə deyə bilərik. Bu gənclər imtahanlarda uğur qazanmış çox sayda həmyaşıdları kimi muxtar respublikamızda onların təlim-tərbiyəsinə göstərilən yüksək dövlət qayğısını həmişə hiss etdiklərini minnətdarlıqla qeyd edib, bunun məsuliyyəti altında gələcəkdə də seçdikləri peşə və sənətdə daim yüksək hədəflərə çatmaq üçün çalışacaqlarını, Azərbaycanın layiqli vətəndaşı olacaqlarını bildirdilər.

**Əli CABBAROV**

# Həmyerlimizin yeni elmi uğuru



AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədova Beynəlxalq Təbiətşünaslıq Akademiyasının Fəxri doktoru diplomunu alıb.

Məlumat üçün bildirək ki, Rusiya Təbiətşünaslıq Akademiyasının 25 illiyinə həsr olunan 8 mərhələli yubiley sessiyasının vəsatəti ilə akademiyanın nəşrlərində, konfrans, sərgi və müsabiqələrində fəal iştirak edən 10 alimə Beynəlxalq Təbiətşünaslıq Akademiyasının Fəxri doktoru adı verilib. Ölkə elmi nailiyyətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rolu olan Fizzə Məmmədova elm sahəsindəki xidmətlərinə, sözügedən elmi qurum ilə əlaqələrin inkişafındakı səmərəli fəaliyyətinə görə bu ada layiq görülüb.

Qeyd edək ki, Fizzə Məmmədova Fiziki kimya ixtisası üzrə 216 elmi əsərin, 100-dən artıq elmi publisistik məqalənin, o cümlədən 8 şəhadətnamənin, ixtira üzrə müəlliflik şəhadətnaməsinin, 1 patentin, 3 monoqrafiyanın və 2 qrant layihəsinin müəllifidir. Alimin çoxsaylı elmi əsərləri rus və ingilis dillərində nüfuzlu impakt faktorlu jurnallarda dərc olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*Ədliyyə sistemində yaradılan yeni probasiya sahəsi müasir informasiya-kommunikasiya texnologiyaları ilə elektron nəzarət vasitələrinin tətbiqini həyata keçirir.*

## Səmərəli probasiya nəzarəti həyata keçirilir

Cəzaya məhkum edilmiş şəxslər üzərində probasiya nəzarəti elektron vasitələrlə reallaşdırılır. Bu vasitələrə məhkumların üzərinə taxılması nəzərdə tutulan elektron nəzarət vasitəsi, mobil qurğular, eləcə də izlənmə monitorları daxildir.



Muxtar respublikada aparılan hüquqi islahatların davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 18 may tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin probasiya sahəsində fəaliyyət istiqaməti yaradılmışdır. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə qısa zamanda nazirlikdə elektron nəzarəti həyata keçirmək məqsədilə elektron izlənmə sistemi qurulmuşdur. İcra məmurları tərəfindən elektron nəzarət vasitəsi məhkum edilmiş şəxslərin üzərinə bağlanır ki, bu da onların hərəkət trayektoriyalarının 24 saat ərzində fasiləsiz izlənməsinə, müvafiq məlumatların izlənmə monitoruna ötürülməsinə imkan yaradır. İzlənmə monitoru məlumatları qəbul edir, məhkum edilmiş şəxslərlə operativ əlaqə yaradır və ona nəzarəti həyata keçirir.

Nazirliyin əməkdaşları tərəfindən mütəmadi olaraq muxtar respublika ərazisində cəzaçəkən şəxslərlə aparılan profilaktik söhbətlər nəticəsində bu günədək hər hansı qanun pozuntusu halı baş verməmişdir. Aparılan profilaktik söhbətlərdə məhkumlara izah olunur ki, məhkəmə qərarına nəzərdə tutulan məhdudiyyətlərə uyğun olaraq hərəkət trayektoriyasına əməl edilməli, daşıdıqları texniki qurğulara mütəmadi qulluq göstərilməli, enerji təchizatı vaxtında təmin olunmalıdır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Futbol Federasiyasının nümayəndələri Mersin şəhərində olublar



Naxçıvan Muxtar Respublikasında digər sahələr kimi, idmanın da inkişafına xüsusi qayğı ilə yanaşılır. İnfrastrukturun yenilənməsi və görülən digər çoxsaylı tədbirlər diyarımızda bu sahənin kütləviləşməsinə bilavasitə təsir göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilən tövsiyə və tapşırıqlar nəticəsində hər il yeni idman kompleksləri, zalları, obyektləri tikilərək insanların ixtiyarına verilir. Belə ünvanlardan biri də hazırda Uzunoba gölü ətrafında inşa edilən futbol kompleksidir.

Beşillik inkişaf strategiyası ilə yeni mərhələyə qədəm qoyan Naxçıvan Futbol Federasiyası göstərilən dəstək və etimad nəticəsində Naxçıvanın futbol həyatındakı ən böyük layihəsini gerçəkləşdirir. Plana əsasən gölün ətrafında bir böyük süni örtüklü futbol stadionu, üstüörtülü və hasara alınmış mini-futbol meydançaları, iki tribunalıq çimərlik futbolu stadionu və inzibati bina, paltardəyişmə, hakim və həkim otaqları inşa edilir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Futbol Federasiyasının nəzarəti altında inşa edilən futbol kompleksinin gələn ilin əvvəlində istifadəyə verilməsi nəzərdə tutulub.

Artıq federasiya nümayəndələri kompleksin inşası məsələləri ilə əlaqədar Türkiyə Cümhuriyyətinin Mersin şəhərində olublar. Məlumat üçün bildirək ki, inşa ediləcək stadionların süni ot örtükləri, eyni zamanda oturacaqları qonşu ölkədən gətiriləcək. Beynəlxalq standartlara cavab verəcək stadionun ətrafı xüsusi lampalarla işıqlandırılacaq. Bununla bağlı federasiya nümayəndələri Mersin şəhərində "PLP qrup CKİnşaat" nümayəndələri ilə görüşüb bu barədə razılığa gəliblər. Ay ərzində türkiyəli mütəxəssislər muxtar respublikamıza gələcək və inşa ediləcək stadionların yerləri tam hazır olduqdan sonra süni ot örtüyünün düzülüşünə başlanılacaq.

Naxçıvan Futbol Federasiyasının nümayəndələri Mersin şəhərində İtaliyanın "İnter" Futbol Klubunun akademiyasında olublar. Akademiyada gedən məşqləri izləyən federasiya rəsmiləri klubun Türkiyə nümayəndə heyətinin rəhbəri Hüseyn Kılavuzla da görüşüblər. Görüş zamanı gələcək işlər barədə fikir mübadiləsi aparılıb və dünyanın məşhur klubunun akademiyasının muxtar respublikamızda da nümayəndəliyinin açılması məsələsi müzakirə edilib. Bununla yanaşı, Mersin şəhərinin klubları ilə görüşlər keçirilib, gələcəkdə Naxçıvan və Mersin şəhərlərinin komandaları arasında təşkil olunacaq futbol görüşləri, eləcə də uşaq futbolu ilə bağlı məsələlər təhlil edilib. Qarşıdakı aylarda Mersin şəhərinin futbol qurumları ilə Naxçıvan Futbol Federasiyası arasında dostluq müqaviləsinin imzalanması da nəzərdə tutulur.

Səfər çərçivəsində muxtar respublikamızda futbol hakimlərinin inkişafı məsələləri də diqqətdə saxlanılıb. Belə ki, federasiya nümayəndələri uzun illər Türkiyənin FİFA referisi olmuş, hazırda Toroslar (Mersin) Bələdiyyəsi idman şöbəsinin müdiri vəzifəsində çalışan Vedat Yüksəllə görüşüb. Görüş zamanı hakimlərin hazırkı vəziyyəti müzakirə edilib və türkiyəli hakimin muxtar respublikamızda gənc hakimlər üçün seminarlarda iştirakı təsdiqlənib.

Qeyd edək ki, Naxçıvan Futbol Federasiyası diyarımızda futbolun inkişafı, kütləviləşməsi və uşaq futbolunun geniş vüsət alması üçün qarşıdakı aylarda Türkiyənin, eləcə də dünyanın bir sıra futbol qurumları ilə müqavilə bağlanmasını nəzərdə tutub.

***Naxçıvan Futbol Federasiyasının mətbuat xidməti***

## Təlimlərə yekun vurulub

Maliyyə Tədris Mərkəzində xəzinədarlıq əməliyyatları üzrə sənədlərin elektron tərtibi sistemi ilə bağlı keçirilən təlimlərə yekun vurulub.

Təlimlərdə nazirlikdə qurulmuş operativ nəzarət portalının elektron poçt sistemində olan yenilikləri və sistemdə qurulmuş yeni modulların işlənilmə mexanizmi nazirliyin əməkdaşı Vüsal Məmmədov tərəfindən təlim iştirakçılarına praktik izah olunub. Xəzinədarlıq əməliyyatları zamanı sənədlərin elektron tərtibi sistemində yeni qurulmuş modul vasitəsilə ödəniş tapşırıqları sənədlərinin sistem üzərindən işlənilməsi qaydaları barədə məlumat verilib.

Nazirliyin şöbə müdiri Vüsal Əsədov təlim iştirakçılarına təqdim edilmiş portalda olan yeniliklərin davam etdirilməsi üçün hazırda təkmilləşdirmə işlərinin aparıldığını bildirib.

Qeyd edək ki, bu günə qədər sistemlə bağlı keçirilən təlimlərdə 49 təşkilatdan 85 maliyyə və mühasibat işçisi iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi gənclərin asudə vaxtının səmərəli təşkili, idmanın kütləviliyinə nail olunması, idman federasiyalarının işinin düzgün qurulması istiqamətində tədbirləri avqust ayında da davam etdirmişdir.*

## Gənclərin asudə vaxtı səmərəli təşkil edilir



Ötən ay 12 avqust – Beynəlxalq Gənclər Günü ilə əlaqədar sağlamlıq imkanları məhdud şəxslər haqqında hazırlanan videoçarxlar nazirliyin sosial şəbəkələrdəki səhifələrində paylaşılmış, Uzunoba gölü və Ağbulaq kəndi ətrafında təmizlik aksiyaları təşkil olunmuş, gənclər arasında "Xəmsə" milli intellektual oyunu, X-XI sinif şagirdləri arasında "Naxçıvan abidələr diyarı" mövzusunda rəsm müsabiqəsi keçirilmiş, "Kim? Nə? Hara?" intellektual oyununun televiziya çəkilişi təşkil edilmiş, tədbirlərdə fəal iştirak edən bir qrup gənc mükafatlandırılmışdır.

Gənc yazıçı Aynur Oruclunun "Mən və siz" kitabının onlayn təqdimatı keçirilmiş, "Könüllü jurnalist" layihəsində iştirak edəcək gənclərin seçimi aparılmışdır. Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin, ölkəmizin ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur" adlı videoçarxlar hazırlanmış, nazirliyin sosial şəbəkələrdəki səhifələrində paylaşılmışdır.

Beynəlxalq Gənclər Günü münasibətilə tədbirlər ay ərzində davam etdirilmiş, gənclər arasında interaktiv tir və stolüstü tennis, gənc müəllimlər arasında şahmat, 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında dart idman növü üzrə muxtar respublika birincilikləri keçirilmişdir. Həmçinin Culfa rayon "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində spelio (mağara) turizm idman yürüşü, "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında Naxçıvan şəhər və Babək rayon komandaları arasında basketbol, Şahbuz və Ordubad rayon komandaları arasında voleybol üzrə yoldaşlıq görüşləri təşkil olunmuşdur. Atıcılıq Federasiyasının idman klubları arasında atıcılığın stend, gənclər arasında tir növü üzrə muxtar respublika birincilikləri, şahmat üzrə tempo turnir və Naxçıvan çimərlik futbolu çempionatının oyunları təşkil olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Mütəxəssis sözü*

## Kiçikyaşlı övladlarımıza məktəbi və dərs prosesini necə sevdirək

Uşağın məktəb haqqında təsəvvürü mücərrəd olmasın deyə, valideyn ona məktəb haqqında düzgün məlumat verməlidir. Çünki uşağın xəyal dünyası zəngin və rəngarəngdir. Əgər valideyn uşağa məktəbin çox gözəl və əyləncəli yer olduğunu desə, bu zaman uşaqda məktəb haqqında doğru təsəvvür formalaşmaya bilər. Çünki bu yaşda olan uşaqlar üçün "gözəllik və əyləncə" anlayışı saysız-hesabsız oyuncağın olması, limitsiz oynamaq imkanı, fərqli attraksionlara minmək, daim istədiyi davranışı yerinə yetirmək deməkdir. Əgər biz uşağa "məktəb" anlayışını düzgün izah etməsək, o, məktəbə gedən zaman xəyallarının tam əksi olan bir mənzərə ilə qarşılaşacaqdır. Çünki məktəbdə yazı, oxu vərdişlərinin öyrədilməsi, nələrisə öyrənməyin tələb edilməsi, bir sözlə, məktəbin nizam-intizamı uşağın xəyalında yaratmış olduğu məktəb modeli ilə üst-üstə düşməyəcəkdir.

Bu səbəbdən valideynlər uşağı məktəbə psixoloji, sosial və emosional cəhətdən düzgün hazırlamalıdırlar. Uşağın məktəblə ilk tanışlığı sentyabr ayının 15-i olmamalıdır. Əgər uşaq məktəblə əvvəlcədən tanış deyilsə, yalnız dərs başlayan gün məktəbə gəlirsə, bu zaman məktəbdə olan böyük izdiham, səs-küy, yeniliklər, qarşılaşdığı situasiya ona vahiməli təsir bağışlayacaq. Bu zaman uşaqda təəccüb, qorxu, utancaqlıq kimi qarışıq duyğular yaranacaq və o ağlayaraq evə getmək istədiyini bildirəcəkdir. Valideynin onu sakitləşdirmək üçün etdiyi hər bir davranış və ya dediyi hər bir söz mövcud situasiyanı daha da dramatikləşdirəcəkdir.



Yuxarıda bəhs etdiyimiz problemlərlə qarşılaşmamaq üçün məktəbin açılmasına bir neçə gün qalmış valideyn məktəb binasını uşağa kənardan göstərərək onda ilkin məktəb haqqında ilkin təsəvvür formalaşdırmalıdır. Səhəri gün isə məktəb rəhbərliyinin icazəsi ilə uşaq məktəblə daha yaxından tanış olmalıdır. Müəllimi onu gülərüz qarşılayaraq sinif otağına aparmalı, uşağı partasına əyləşdirərək bir neçə dəqiqə onunla səmimi ünsiyyət qurmalıdır. Bu zaman uşaqda məktəb haqqında real təsəvvürlər yaranmış olur. Uşağın ilk gündən məktəbi sevməsi üçün valideynin övladına seçim hüququ verməsi mütləqdir. Məsələn, məktəb üçün ləvazimatlar alarkən uşağı bu prosesdən ayrı tutmamalıdır. Öz əşyalarını seçə bilmək imkanı uşağa dəyərlilik, özünəinam, müstəqillik hissini qazandırmaqla yanaşı, məktəbə və dərslərinə maraq formalaşdıracaqdır. Müstəqillik qazanan uşaq daim valideyninin onun yanında olmasını tələb etmir. Çünki özü müstəqil surətdə qərarlar verməyi, sərbəst davranmağı, yoldaşları ilə ünsiyyət qurmağı öyrənmişdir.

Bildiyimiz kimi, uşaq məktəbə getməklə yeni bir mərhələyə – təlim mərhələsinə qədəm qoyur. Bu da mütləq nəzərə alınmalıdır ki, onun üçün mövcud şəraitin qayda-qanunlarına adaptasiya olmaq onun üçün heç də asan deyil. Müəllimlər bu məsələni diqqətdə saxlamalıdırlar.

Bəzi valideynlər uşaq məktəbə başlayan kimi onu tamamilə təlim fəaliyyətinə yönəldərək oyun fəaliyyətindən, əyləncələrdən təcrid edirlər. Uşağa göstərilən bu münasibət həm psixoloji, həm də pedaqoji cəhətdən yanlış davranışdır. On yaşına kimi oyun və təlim fəaliyyəti paralel surətdə olmalıdır. Təlim fəaliyyətində yaranan yorğunluq oyun fəaliyyəti zamanı aradan qalxır, uşaq əvvəlki rahatlıqla dərslərinə geri qayıda bilir. Oyun fəaliyyəti böyüklər üçün yalnız əyləncə kimi görünsə də, əslində, o da təlim fəaliyyəti kimi uşağı gələcəyə hazırlayır və ictimai təcrübəni öyrənməyə xidmət edir. Oyun fəaliyyətindən tamamilə məhrum edilən uşaqlarda məktəbə qarşı mənfi münasibət yaranır. Onlar düşünürlər ki, əgər məktəb olmasa idi, istənilən qədər oyuncaqları ilə vaxt keçirib əylənə bilərdilər. Təbii ki, məktəbi istəklərinin qarşısında duran bir sədd kimi görən uşağın öyrənməyə marağı azalacaqdır.

Bu səbəbdən dərslərə başladığı ilk günlərdən uşağa gündəlik olaraq oyun, təlim, yuxu rejimi yaratmaq lazımdır. Uşağa "Dərslərini indi hazırla, sonra nə qədər istəyirsən, get, oyna" demək düzgün deyildir. Altıyaşlı uşaqda bəzi qığırdaq sümüklər hələ möhkəmlənmədiyinə görə asanlıqla yorula bilir. Uşaq oxu, yazı tapşırıqlarını fasilələrlə yerinə yetirməlidir. Belə etdikdə, zehni və fiziki cəhətdən çox yorulmaz, məktəbi, dərsi kiçikyaşlı övladlarımıza sevdirməklə təhsil prosesində daha sürətli effektivliyə nail olarıq.

**Həqiqət QASIMOVA**
***psixoloq***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası necədir?*

***Cavab:*** Müddətli əmək müqaviləsinin müddəti qurtardıqda xitam verilir. Müddətli əmək müqaviləsində göstərilən müddət qurtardıqda əmək münasibətləri davam etdirilərsə və müddət bitdikdən sonrakı bir həftə ərzində tərəflərdən heç biri müqaviləyə xitam verilməsini tələb etmirsə, həmin əmək müqaviləsi əvvəl müəyyən olunmuş müddətə uzadılmış hesab olunur.

İşçinin müəyyən üzrlü səbəbdən iş yerində olmadığı dövrdə müddətli əmək müqaviləsinin müddəti qurtardığı hallarda həmin müqaviləyə işçi işə çıxdıqdan sonra işəgötürənin müəyyən etdiyi gündə, lakin onun işə çıxdığı gündən bir təqvim həftəsi keçməmiş xitam verilə bilər.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, Bulqan kəndində yaşayan Mirzəyev Məşdi Abbas oğlunun adına verilən JN-1086[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 669